**Xocalı soyqırımı dünya meridianlarında**

# Məqsəd təkcə kədəri deyil, həqiqəti paylaşmaqdır

Dünyanın müxtəlif səmtlərində az da olsa üç oxşar hadisə ürəkləri göynədir. Belə hadisələr Çexiya respublikasının Lidifca qəsəbəsində, Belarusiyanın Xatın kəndində, Azərbaycanda, Dağlıq Qarabağ vilayətinin Xocalı şəhərində baş verən hadisələrdir. Hazırda bu hadisələr insan qəddarlığının (əgər belələrinə insan demək olarsa) bariz nümunəsi kimi hər il qeyd olunur. Çexiya respublikasının Azərbaycandakı səfiri Radek Mafula demişdir ki, bizim qəsəbədə də alman faşistləri 400-dən çox adamı öldürdülər. Amma sizdə törədilmiş faciə daha dəhşətlidir. Belə görünür ki, erməni cəlladları alman faşistlərindən də betər imiş.

Bəli, Xocalıda bütöv bir şəhər bir gecədə məhv edilmiş, yüzlərlə vətəndaş insanlığa xas olmayan işgəncələrlə qətlə yetirilmişdir. Erməni cəlladlarının təsəvvürə sığmayan, yalnız azərbaycanlı olduqlarına görə törətdikəri amansız vəhşilikləri sadalamağa insanın dili gəlmir. Bu hadisədən 24 il keçsə də törədilmiş bəşəri cinayət bu gün də dünya meridianlarında--müxtəlif ölkələrdə, hətta dövlət qurumlarında, ayrı-ayrı ictimai təşkilatlarda xatırlanır, bəşəri bir cinayətin törədildiyi bu hadisəyə hələ də beynəlxalq səviyyədə siyasi qiymət verilmədiyi təəssüf hissi ilə qeyd olunur. Halbuki beynəlxalq hüquq normalarına, BMT və ATƏT-in prinsiplərinə görə dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir. Ərazi bütövlüyünün və suverenliyinin pozulması yolverilməzdir, heç bir cinayət cəzasız qalmadığı kimi Azərbaycan xalqına qarşı olan amansız əməlləri törədənlər də öz cəzalarını almalıdırlar.

**Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.**

**Heydər Əliyev.**

Bu cür tələblər dünyanın bir çox ölkələrində--Bütün Avropa, Amerika və digər qitələrdə böyüklü-kiçikli dövlətlərdə, şəhərlərdə keçirilən yığıncaqlarda Xocalı soyqırımı XX əsrin ən böyük faciəsi kimi qeyd olunur. Bu faciə ilə əlaqədar tədbirlərdə sənədli filmlər nümayiş etdirilir, beynəlxalq formlar, konfranslar keçirilir, sərgilər təşkil edilir, beynəlxalq təşkilatlara Xocalı soyqırımının tanınması ilə əlaqədar müraciətlər qəbul olunur. Böyük Britaniyanın Liverpul Universitetinin kitabxanasında Xocalı faciəsinə və Qarabağa aid onlarla kitab vardır. “Qarabağ həqiqətləri” buketlər toplusu kitabxana oxucularına paylanmışdır. Kitablar arasında “Azərbaycan Post-Konflikt ərazilərin bərpası: Konseptual əsaslar”, “Unudulmuş münaqişə”, “Qarabağ haqqında həqiqi faktlar”, “Xocalı faciəsi--Beynəlxalq baxış” və s. nəşrlər kitabxanada xüsusi yer almışdır.

Malayziyada keçirilən beynəlxalq forumda münaqişələrin həll edilməsi üzrə xarici və yerli ekspertlər, sülh üzrə Nobel mükafatçıları, Malayziya və İndoneziyanın dövlət rəsmiləri, xarici ölkələrin 40 nəfər sülh fəalı, o cümlədən tələbələr iştirak etmişlər. Qazaxıstanda, demək olar bütün MDB ölkələrində, Meksikada, Türkiyədə, İranda, Böyük Britaniyanın, Fransanın ali təhsil ocaqlarında, şərq ölkələrinin bir çoxunda mütəmadi olaraq Xocalı soyqırımı ilə əlaqədar tədbirlər keçirilir, ermənistanın bu təcavüzkar, daim terrorla məşğul olan ölkənin beynəlxalq hüquq normalarını pozduğu qeyd olunur. Həmçinin qeyd etmək lazımdır ki, bəzi ölkələrdə Xocalı soyqırımına heç də laqeyd yanaşılmamışdır. Artıq 12 dövlət--Pakistan, Meksika, Honduras, Sudan, Rumınya, Serbiya, Peru, Panama, Çexiya, İordaniya, Bosniya və Hersoqovina, Kolumbiya, ABŞ-ın 18 ştatı Xocalı hadisələrinin soyqırım aktı kimi tanınması haqqında qərarlar qəbul ediblər. Belə dövlətlərin sayı ildən-ilə artmaqdadır.

Lakin ölkəmizdə cənab Prezident İlham Əliyevin əbədi Azərbaycan torpaqlarının qaytarılması istiqamətində apardığı xarici siyasət haqlı, ədalətli, sülhməramlı siyasət öz bəhrəsini verəcək. Çünki haqlı tələb gec-tez bərpa olunmalıdır.

**Nadir ATAKİŞİYEV.**

# Peşə təhsili uğurlu gələcəyimizin təminatçısıdır

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyasının” həyata keçirilməsi ilə bağlı olaraq peşə-ixtisas təhsilinin məzmununu müasir tələblərə və şəraitə uyğunlaşdırmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq bacarığını formalaşdırmaq lazımdır. Təhsil alanları müstəqil həyata hazırlamaq, onlara seçdikləri peşələri mükəmməl öyrətmək, milli və beynəlxalq əmək bazarında rəqabətə qabil xüsusiyyətlərə malik olmaları təmin edilməlidir.

Bildiyimiz kimi ilk peşə-ixtisas təhsilinin əsas məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə, demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil, milli-mənəvi, ümumbəşəri dəyərləri qoruyan, inkişaf etdirən, geniş dünyagörüşünə malik təşəbbüsləri, yenilikləri qiymətləndirməyi bacaran nəzəri biliklərə yiyələnən müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis kadrlar hazırlamaqdır.

Hazırda ilk peşə-ixtisas təhsili sahəsində çox mühüm işlər görülür. Azərbaycanın iqtisadi, coğrafi mövqeyi, təbiətinin ecaskarlığı burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Bu məqsədlə respublikanın müxtəlif bölgələrində yaradılan istirahət mərkəzləri, otellər, əyləncə mərkəzləri üçün bacarıqlı, hərtərəfli, istedadlı kadrların hazırlanmasını tələb edir.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi bu baxımdan respublika üzrə ən perspektivli və qabaqcıl təhsil ocaqlarından biridir. 2009-cu ildən fəaliyyətə başlayan tədris mərkəzinin kollektivinin üzərinə bu şərəfli və məsuliyyətli işin öhdəsindən gəlmək məsuliyyəti düşmüşdür. Tədris mərkəzində çalışan ali təhsilli istehsalat təlim ustaları və fənn müəllimlərinin tədris və təlimləri ilə aşpaz, qənnadçı, şirniyyatçı, ofisiant, barmen, bufetçi, mehmanxana inzibatçısı, turizm agenti, kompüter operatoru, əməliyyatçı mühasib peşələri üzrə kadrlar hazırlanır.

İstehsalat təlim ustalarımız respublikamızda, Bakı şəhərində ixtisasartırma kursları keçməklə yanaşı, bəziləri Türkiyə Respublikasının İzmir, İstanbul şəhərlərində fəaliyyət göstərən peşə təhsili ocaqlarında kurslar keçmiş, bu ölkənin peşə təhsil sistemi ilə yaxından tanış olmuşlar.

İstehsalat təcrübəsinin yüksək səviyyədə keçilməsi üçün mərkəzdə hazırlanan ayrı-ayrı peşələr üzrə dəqiqləşdirilmiş proqramlar tərtib edilmiş və bu proqramlar istehsalat nümayəndələri ilə razılaşdırılmışdır. İstehsalat təcrübəsindən əvvəl müəssisələrlə müqavilələr bağlanaraq, şagirdlər təcrübə keçəcəyi sex və şöbələrdə istehsal prosesi, əmək şəraiti ilə yaxından tanış olurlar. Peşə təliminin son mərhələsi olan istehsalat təcrübəsi şagirdlərin bilik , bacarıq və vərdişlərinin möhkəmləndirilməsində və təkmilləşdirilməsində mühüm rol oynayır. Şagirdlər rayonumuzun müxtəlif idarə və müəssisələri ilə yanaşı ən yüksək səviyyəli 5 ulduzlu «Qafqaz» Resort , «Qafqaz» Sport, «Qafqaz» Riverside, «Qafqaz» Karvansaray, «Qafqaz» Tufandağ, «Qafqaz» Yeddi Gözəl və s. otellərində istehsalat təcrübəsi keçirlər.

Müasir dövrdə elm və texnikanın sürətli inkişafı, informasiyanın zənginliyi, təhsil sahəsində yüksək uğur qazanmaq üçün tətbiq olunan metodlar, müəllimin şagirdlərə göstərdiyi pedaqoji və psixoloji təsir onların hərtərəfli şəxsiyyət kimi formalaşmasında msühüm rol oynayır.

Tədris Mərkəzində təhsil alan şagirdlərin əksəriyyətini yeniyetmə və gənclər təşkil edir. Mərkəzimizdə gənclərin asudə vaxtlarının düzgün və səmərəli keçirmələri üçün hər cür şərait yaradılmışdır. Buraya müxtəlif idman oyunları oynamaq, psixoloji fərdi söhbətlərdə iştirak etmək, xüsusi qabiliyyətli şagirdlərin üzə çıxarmaq, bilik yarışlarının keçirilməsi və s. nəzərdə tutulmuşdur.

Gənclik dövrü böyük coşqunluq öz qüvvəsinin nə isə böyük işlərə həsr etmək, yaradıcı təşəbbüslərin genişlənməsi ilə xarakterizə olunur. Məhz bu dövrdə gəncin fərdiyyəti, onun mənəvi, sosial siması formalaşır, ictimai fəaliyyətə maraq və şəxsi məsuliyyət hissi artır, həyatda öz yerini tapmaq meyli yaranır. Daha bir yeniliyi qeyd etmək yerinə düşər ki, şagirdlərimizin də erkən yaşlarından şəxsiyyət vəsiqəsi əldə etməsi onları cəmiyyətin ictimai-sosial həyatının fəal üzvünə çevirir.

Müstəqillik əldə olunduqdan sonra dövlətin gənclər üçün nəzərdə tutduğu islahatlar və bu islahatların cənab Prezident tərəfindən dövrün, zamanın tələblərinə uyğunlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan gəncliyi təhsili, intelektual səviyyəsi, qabiliyyətinə görə qabaqcıl yerlərdən birini tutur. Bu da dövlətin gənclərə göstərdiyi xüsusi qayğının nəticəsidir. Gənclər peşə seçərkən öz istəkləri nəzərə alınmaq şərtilə müəllimlərin köməyi ilə düzgün istiqamətləndirilməlidirlər. Çünki ölkənin gələcəyi məhz gənclərin əlindədir.

**Vüsalə Qəribova,**
**tədris mərkəzinin psixoloqu.**